# Beynəlxalq ictimaiyyət Azərbaycanın haqq səsini eşidir və ölkəmizi dəstəkləyir



***Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son illər ərzində apardığımız işlər münaqişənin həlli üçün hüquqi bazanı daha da genişləndirmişdir... Biz münaqişənin həlli üçün iqtisadi zəmin də yaratmışıq, güclü ordu formalaşdırmışıq. Görülən kompleks tədbirlər nəticəsində Azərbaycan bu məsələ ilə bağlı siyasi və diplomatik üstünlüyü tam təmin edibdir. Məhz bunun nəticəsidir ki, nə qədər dünya erməniliyi çalışsa da, heç bir dövlət qanunsuz Dağlıq Qarabağ rejimini tanımayıb.***

***Prezident İlham Əliyevin***
***Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil olunan rəsmi qəbuldakı nitqindən***

**Ulu öndər Heydər Əliyevin gənc müstəqil Azərbaycan dövlətinin sükanı arxasına keçməsindən sonra ölkəmizin beynəlxalq təcridinə son qoyulmuş, Azərbaycan dünyanın aparıcı ölkələri ilə konstruktiv münasibətlər qura bilmişdir. İlk növbədə isə qonşu dövlətlərlə münasibətlər normallaşdırılmışdır. Ciddi iqtisadi islahatların nəticəsi olaraq ölkəmizə böyük sərmayə axını müşahidə edilməyə başlamışdır. "Əsrin kontraktı" imzalanmışdır ki, bu, iqtisadi müstəqilliyimizi şərtləndirən əsas amil olmuşdur. Yəni 1993-cü ilin yayından başlayaraq, Azərbaycan tərəqqi yolu ilə inamla gedir və inkişaf davam edir.**

Ancaq çox təəssüf ki, bütün bunlarla yanaşı, ölkəmizin yeganə problemi olan Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi neçə illərdir ki, uzanır. Doğrudur, həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev bu istiqamətdə kifayət qədər qətiyyətli addımlar atmış, beynəlxalq ictimaiyyətin münaqişənin tarixi və səbəbi barədə əsl həqiqətləri öyrənməsinə nail olmuşlar. Təəssüf ki, bəzi siyasi dairələrin əl çəkə bilmədiyi ikili standartlar həmin probemin həllinə mane olur.

Dövlət başçımızın da dediyi kimi, Azərbaycan bu gün beynəlxalq arenada öz mövqelərini gücləndirir, beynəlxalq aləmdə çox böyük nüfuza malik olan bir ölkədir. Bizimlə əməkdaşlıq edən ölkələrin sayı getdikcə artır. Biz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişik. Bu il isə BMT-dən sonra ikinci böyük təşkilata – Qoşulmama Hərəkatına sədrlik etməyə başlamışıq. Yəni dünya birliyi Azərbaycana böyük hörmət və rəğbətlə yanaşır. Bu gün dünyanın siyasi xəritəsində Azərbaycanın yeri çox möhkəmdir.

Sevindirici haldır ki, dünya ictimaiyyəti Azərbaycanın haqq səsini eşidir və bizi dəstəkləyir. Bu arqumentimizi bəzi faktları yada salmaqla konkretləşdirək. Məsələn, bu il sentyabrın 20-də – "Əsrin müqaviləsi"nin imzalanmasının 25-ci ildönümü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə məktub göndərən Amerika Birləşmiş Ştatlarının dövlət katibi Maykl Pompeo həmin əlamətdar yubileylə bağlı dövlətimizin başçısına və Azərbaycan xalqına Amerika Birləşmiş Ştatları adından salamlarını və təbriklərini çatdırıb. Vurğulayıb ki, ölkəsi Azərbaycanla energetika, iqtisadiyyat, təhlükəsizlik sahəsində və digər sahələrdə birgə işin davam etməsini və dərinləşməsini səmimiyyətlə arzulayır: "1994-cü ildə Qərb şirkətləri ilə bu müqaviləni imzalamaqla və Bakı–Tbilisi–Ceyhan boru kəmərini inşa etməklə Azərbaycan dünya bazarlarında əsas neft təchizatçısına çevrildi və ilk dəfə olaraq Xəzər dənizi ilə Aralıq dənizi arasında birbaşa enerji bağlantısı yaratdı… Xəzər Neft və Qaz Sərgisinin 26-cı ildönümü münasibətilə Prezident Donald Tramp öz məktubunda qeyd etdiyi kimi, biz Sizin səylərinizi tam dəstəkləyirik və hesab edirik ki, Azərbaycanın iqtisadi uğuru regionun sabitliyi və çiçəklənməsi üçün əhəmiyyətlidir".

Yeri gəlmişkən, oktyabrın 1-də dünyanın ən mötəbər və nüfuzlu beynəlxalq təşkilatı olan BMT Baş Assambleyasının 74-cü sessiyasında da bizim siyasi mövqeyimizə bəraət qazandıran fikirlər səsləndirildi. Məsələn, ABŞ Prezidenti Donald Tramp "Gələcək qlobalistlərin deyil, vətənpərvərlərindir. Gələcək öz vətəndaşlarını müdafiə edən, qonşularına hörmətlə yanaşan və hər bir ölkəni unikal edən, xüsusi edən fərqlərə hörmət göstərən suveren müstəqil dövlətlərindir"-- deyərək, bir çox siyasətçiləri mat qoydu. Ermənistanın işğalçılıq siyasətini dəstəkləyən dairələrin heç biri ABŞ Prezidentinin bu bəyanatını gözləmirdi. Hələ bu, harasıdır, cənab Tramp əlavə edir ki, "hər bir ölkənin öz sərhədlərini qorumaq hüququ vardır".

Doğrudur, bu məqamda ABŞ Prezidentinə sual verilə bilər ki, bəs onda hansı səbəbə görə, Azərbaycana ərazi bütövlüyünü bərpa etməkdə maneələr yaradılır? Ekspert və analitiklər yazırlar ki, bizim haqq işimizə üç istiqamətdə maneə törədilir. Birincisi, qadağan edirlər ki, hərbi əməliyyatlar olmaz. Yəni pozulmuş sərhədləri ancaq danışıqlar yolu ilə bərpa etmək mümkündür. İkincisi, danışıqlarda vasitəçi olan ATƏT-in Minsk qrupunun artıq 25 ildən çoxdur ki, süründürməçi, səmərəsiz, dişsiz, ikili standartlardan yanaşma siyasətini dəyişmirlər. Özü də bu quruma həmsədr ölkələr ABŞ, Rusiya və Fransadır.

Bəzi dövlət başçılarının və ikili standartı həyat norması kimi qəbul edən siyasətçilərin o qədər də aydın və konkret olmayan çıxışlarının fonunda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın nitqi çox böyük maraq doğurdu. Cənab Ərdoğan müsəlman ölkələrinə qarşı yürüdülən ikili standartlar siyasətinə etiraz edərək Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi zərurətini bir daha vurğuladı. Dünyanın müxtəlif regionlarında müsəlmanlara qarşı aparılan radikal siyasəti, silahlı təcavüzləri kəskin pislədi. Bununla da nümayiş etdirdi ki, Türkiyə bütün dünyanı və insanlığı əhatə edən, problemlərin ədalətli həlli istiqamətində fəaliyyət göstərən bir dövlətdir. Türkiyə Prezidenti ifadə etdi ki, BMT ədalət, əxlaq və vicdan əsasında yenidən təşkilatlandırılacağı halda insanlığa yenidən ümid verəcəkdir.

Rəcəb Tayyib Ərdoğanın həmin çıxışından bir neçə gün əvvəl DND xəbər agentliyi (Dispatch News Desk) Nyu-Yorkdakı mənbəyə istinadən yazırdı ki, Pakistan dünya ictimaiyyətindən Ermənistanı Azərbaycanın işğal olunmuş ərazilərindən geri çəkilməyə məcbur etməsini tələb edir. Fakt ondan ibarət idi ki, dost ölkənin xarici işlər naziri Şah Mahmud Qureşi İslam Əməkdaşlıq Təşkilatının BMT Baş Məclisi çərçivəsində keçirilmiş qrup görüşündə dünyanın Ermənistana Azərbaycan ərazilərini azad etməsi və işğala son qoyması üçün daha çox təzyiq göstərməsini tələb edib. O qeyd edib ki, Pakistan Azərbaycanı dəstəkləyir və Ermənistan kimi təcavüzkar qüvvələrin dünyadakı əsas güclər tərəfindən sərt şəkildə qınanılmadığı təqdirdə sülhü bərqərar etmək mümkün olmayacaq.

Mənbənin yazdığına görə, Mahmud Qureşi əlavə edib ki, Dağlıq Qarabağ onilliklər boyunca insanların əzab-əziyyət çəkməsinə səbəb olmuş bir yanar atəşdir. Kəşmir və Dağlıq Qarabağ oxşar hallarla üzləşib. Nazir Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağdan dərhal çıxmasını tələb edib.

Haqqında söz açdığımız bu faktlar Azərbaycanın haqq səsinin beynəlxalq ictimaiyyət tərəfindən eşidilməsi və bizə dəstək verilməsi haqqında şahidi olduğumuz məlumatların az bir hissəsidir. Bu isə sübut edir ki, mütərəqqi insanlar ikili standart müəlliflərini üstələyirlər və ədalətin zəfər çalacağı gün uzaqda deyil.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2019.- 4 oktyabr.- S.4